## *Bənövşələrdən ayrıI*

Bənövşələrdən ayrı

Dağlar dözə bilir, dağlara nə var,

Mən ki, dözə bilmirəm.

Bir də nə vaxt çiçəkləyər gilənar?

Bağlar dözə bilir, bağlara nə var,

Mən ki, dözə bilmirəm.

Niyə belə geç açıldı lalələr?

Çöllər dözə bilir, çöllərə nə var,

Mən ki, dözə bilmirəm.

Qu quşları unutdumu gölləri?

Göllər dözə bilir, göllərə nə var.

Mən ki, dözə bilmirəm

Şəhidlər xiyabanında sönməyən

Bu usyankar sükuta

İllər dözə bilir. illərə nə var.

Mən kn, dözə bilmirəm

Fərzəli Ə. Bənövşələrdən ayrı : Şəhidlər xiyabanında düşüncələr // Azərbaycan gəncləri. – 1991. – 22 yanvar.